

# Əsgərlərinin "qızıl komutanı"

**Vətən müharibəsində qazandığımız qələbə Azərbaycan tarixinə əbədi olaraq qızıl hərflərlə həkk olundu. Vətən müharibəsində tarix yazan qəhrəman Ordumuz, əsgər və zabitlərimiz Azərbaycanın haqq uğrunda mübarizə aparmaq əzmini, əsl döyüş ruhunu bütün dünyaya nümayiş etdirdi. Qələbəyə öz qanları ilə imza atan şəhidlərimiz bizlərə ömür boyu haqqında danışacağımız dastan qoyub getdilər. Özlərini doğmalarının gələcəyi üçün fəda edən polad ürəkli mübarizlərimiz, vətən sizi unutmayacaq!**

Bu tarixi qələbənin qazanılması naminə canını fəda etmiş zabitlərimizdən biri də Azərbaycan Silahlı Qüvvələrinin mayoru Hüseynağa Salman oğlu Balıyevdir. Hüseynağa Balıyev Vətən fədaisi idi. O, Vətənini canından çox sevir, bayrağımızı həmişə ucalarda görmək istəyirdi. Hüseynağa Balıyev 1987-ci il dekabrın 22-də Salyan şəhərində dəmiryolçu ailəsində anadan olub. Ailədə dörd övlad - iki qız və iki oğlan olublar. Dördü də ali təhsil alıb. Qardaşı İsa Balıyev Aprel döyüşlərinin iştirakçısıdır.

Hüseynağa 2004-cü ildə orta məktəbi bitirdikdən sonra hərbçi peşəsinə yiyələnmək üçün Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olub. 2010-cu ildə məktəbi əla qiymətlərlə bitirərək, Naxçıvandakı hərbi hissədə zabit kimi qulluq etməyə başlayıb. 2015-ci ildə onun xidmət yeri cəbhə xəttinin Ağcabədidən keçən hissəsində yerləşən hərbi hissələrdən birinə dəyişdirilib. Əvvəlcə qərargah rəisi, bir müddət sonra isə tabor komandiri kimi xidmət edib.

"Hüseynağaya öz atamın adını qoymuşdum, qızı Rənaya da öz adımı... Heç vaxt inanmazdım ki, Hüseynağa şəhid olacaq. Nə vaxt zəng vururdu, deyirdi "məndən nigaran qalmayın, hər şey yaxşıdır", - deyə anası Rəna xanım xatırlayır.

Nərmin xanım da həyat yoldaşından danışanda göz yaşlarını saxlaya bilmir: "... 10 ildir ailə həyatı qursaq da, Hüseynağa zabit həyatı ilə bağlı evdə çox az olmuşdu. Olduqca qayğıkeş və mehriban ailə başçısı idi. Qadına qarşı misilsiz dərəcədə nəzakət nümayiş etdirirdi. Uşaqlara baxıb sevinərdi... Sonuncu gəlişində uşaqlara elə həsrətlə baxdı ki... Heç vaxt mənə iş buyurmazdı. Zabit həyatı ona özünəqulluq vərdişi aşılamışdı. Həm də çox səliqəli idi. Axırıncı dəfə evə avqust ayının sonunda gəldi. Uşaqları da götürüb, Hacıqabul rayonunda yerləşən "Qədirxum" ailəvi istirahət mərkəzinə getdik. Sanki ürəyinə dammışdı ki, şəhid olacaq. Evə qayıdanda Haruna veliosiped də alıb qoydu... Elə bilirəm ki, baş verənlər bir yuxudur, Hüseynağa yenə qapını açıb evimizə girəcək. Şəhid olmamışdan iki gün əvvəl, oktyabr ayının 6-da evə zəng vurub hal-əhval tutdu. Sonda telefonu oğlumuz Haruna verməyimi istədi. Haruna dedi ki, "özündən muğayat ol, oğlum!" Mənə çox ağırdır onun yoxluğunu qəbul etmək. Hüseynağa şəhid olanda tabeliyində qulluq etmiş əsgərlər instaqramda "Qızıl komutanımız şəhid oldu. Onun özündən də, soyadından da bir dənə idi. Bizim qayğımıza doğma balası kimi qalırdı" yazmışdılar".

Hüseynağa bizə müharibə barədə heç bir şey demədi. Elə televizordan aldığım məlumatdan bilirdim ki, Vətən müharibəsi başlayıb. Gözləyirdim, o qayıdanda soruşaram olanları, qismət olmadı... balam şəhid oldu Vətən yolunda. Oğlu Harun deyir ki, "Nənə sən ağlama, ağladığına görə atam qayıtmır...", - deyə Rəna xanım söhbəti davam etdirir.

Hüseynağa Balıyev 2020-ci ilin oktyabr ayının 8-də Xocavənd rayonunun Hadrut qəsəbəsinin azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olub. O, döyüşdə əsgərlərinə düşmənin atdığı minadan qorunmaq üçün təkrar "yerə yatmaq" əmri vermək üçün qalxarkən özü şəhid olub. Sağlığında igid komandirə verilmiş mayor rütbəsi vəsiqəsi o dəfn olunan zaman məzarı başında atasına təqdim olunub.

"Sonuncu dəfə 3 günlük evə gəlməsi vidalaşmaq üçün imiş, amma görüşüb gedəndə gülə-gülə çıxdı... Peşəkar hərbçi olan oğlum Qələbə ilə başa çatmış müharibədə komandir kimi şəhid oldu. Mən Hüseynağa ilə fəxr edirəm. Komandir Hüseynağa Balıyevin adından - onun əvəzinə bütün şəhid əsgər və zabitlərin valideynləri qarşısında baş əyirəm. Vətən sağ olsun!" - deyir atası Salman kişi.

Silahlı Qüvvələrin tabor komandiri, mayor Hüseynağa Balıyev ölümündən sonra Prezident İlham Əliyevin sərəncamları ilə "Qarabağ" ordeni və "Vətən uğrunda medalı" ilə təltif edilib.

**M.MİRZƏ,**
**"Respublika".**

Respublika .- 2023.- 26 sentyabr.- S.6.